# İspaniya jurnalında İmadəddin Nəsimi haqqında məqalə çap olunub

**_İspaniyanın nüfuzlu "Ejecutivos" jurnalının may ayı buraxılışında dahi Azərbaycan şairi İmadəddin Nəsiminin həyat və yaradıcılığı ilə bağlı məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, Madrid şəhərində İspaniyanın nüfuzlu "Ejecutivos" jurnalının sayca 29-cu mükafatlandırma mərasimi keçirilib._**




Tədbirdə İspaniyanın dövlət rəsmiləri, müxtəlif nüfuzlu beynəlxalq və yerli şirkətlərin təmsilçiləri, ictimaiyyət, yerli kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər. Tədbir zamanı adıçəkilən jurnalın may ayı buraxılışı təqdim edilib. Nəfis tərtibata malik jurnalda böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin həyat və yaradıcılığı ilə bağlı məqalə dərc olunub.

Məqalədə dahi şairin irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığı, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyəti nəzərə alınaraq Azərbaycanda 2019-cu ilin "Nəsimi ili" elan olunduğu diqqətə çatdırılıb. Ədibin ümumilikdə Şərq dünyasının mədəniyyət tarixində özünəməxsus yerə malik olduğu qeyd olunub, dahi şairin humanist ideyaları və mənəvi dəyərləri barədə geniş məlumat verilib.

Qeyd olunub ki, Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir. Türkdilli xalqların mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzindədir.

Məqalədə vurğulanıb ki, şairin irsinin Azərbaycanda sistemli şəkildə tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin anadan olmasının 600 illiyinin keçirildiyi vaxta təsadüf edib, 1973-cü ildə böyük söz ustasının 600 illik yubileyi UNESCO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edilib və beynəlxalq miqyasda qeyd olunub, həmin dövrdən etibarən Nəsimi yaradıcılığı ilə bağlı çox sayda araşdırmaların aparılıb. Dahi şairin həyat və yaradıcılığını özündə əks etdirən məqalə tədbir iştirakçıları tərəfindən böyük maraq və rəğbətlə qarşılanıb.

Səs.- 2019.- 14 iyun.- S.2